**“Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi” işçi qrupunun fəaliyyətinə dair**

# MƏLUMAT

“Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi” işçi qrupu 06.10.2023-cü il tarixdə Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin (bundan sonra – **HEQT Mərkəzi**) müraciəti əsasında **Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın tərkibində** yaradılmışdır. İşçi qrupun əsas məqsədi ölkəmizdə iqtisadi sahədə münasibətləri tənzimləyən ən mühüm qanunvericilik aktı olan Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) müasir dövrün tələblərinə uyğunlaşdırılaraq modernləşdirilməsi, habelə mütərəqqi xarici təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsini təmin etməkdir. Nəzərə alınmalıdır ki, işçi qrup tərəfindən yeni Mülki Məcəllənin layihəsinin deyil, mövcud Məcəlləyə dəyişikliklər paketinin hazırlanması həyata keçirilir. Mülki dövriyyənin stabilliyinin qorunmasına xidmət edən bu yanaşma işçi qrupun üzvləri tərəfindən yekdilliklə dəstəklənmişdir.

İşçi qrupun tərkibi Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın sədri, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini tərəfindən təsdiq edilmiş və qrupun tərkibinə dövlət orqanlarının (qurumlarının), təhsil müəssisələrinin, aparıcı hüquq şirkətlərinin, qeyri-hökumət təşkilatlarının nümayəndələri, habelə müstəqil ekspertlər və vəkillər (**ümumilikdə 56 üzv**) daxil edilmişdir (https://azranking.az/working-groups). İşçi qrupun fəaliyyətinə rəhbərliyin həyata keçirilməsi HEQT Mərkəzinin İcraçı direktoru Samir Mahmudova həvalə edilmişdir.

Mülki Məcəllənin təkmilləşdirilməsi işinin xüsusilə əhəmiyyətli və mürəkkəb olmasını nəzərə alaraq, işçi qrup tərəfindən ilkin mərhələdə Mülki Məcəllənin təkmilləşdirilməsi üzrə **konsepsiyanın hazırlanması** qərarlaşdırılmışdır. Hesab edilmişdir ki, bu halda işçi qrup tərəfindən daha təkmil və düşünülmüş layihənin tərtib edilməsi mümkün olacaq. Həmçinin, konsepsiya sənədi Mülki Məcəlləyə edilən dəyişikliklərin gələcəkdə düzgün şərh və tətbiq olunmasına zəmin yaradacaq, elmi-praktiki kommentariyaların və dərsliklərin yazılması üçün qiymətli istinad mənbəyi kimi çıxış edəcəkdir. Konsepsiya sənədi hazır olduqdan sonra onun əsasında konkret dəyişiklikləri nəzərdə tutan qanun layihələrinin hazırlanması həyata keçiriləcəkdir.

Konsepsiya sənədinin hazırlanması üçün həyata keçirilən hüquqi tədqiqatın və tərtibat işinin daha səmərəli təşkili məqsədilə işçi qrupun nəzdində **tərtibat komandası** (*drafting team*) yaradılmışdır. Tərtibat komandası az sayda HEQT Mərkəzinin əməkdaşları olan daimi üzvlərdən – Samir Mahmudov (rəhbər), Xeyransa Əliyeva, Ziyəddin Əlizadə – və müvəqqəti *(ad hoc)* üzvlərdən ibarət tərkibdə fəaliyyət göstərir.

Konsepsiya sənədinin hazırlanmasında **Beynəlxalq Kommersiya Müqavilələri üzrə UNİDRUA Prinsipləri** (*UNIDROIT Principles of International Commercial Contracts)* və **Avropa Xüsusi Hüququnun Model Qaydalarında** *(Model Rules of European Private Law)* tətbiq edilən üslub və struktur əsas götürülmüşdür. Buna uyğun olaraq, konsepsiya sənədində Mülki Məcəlləyə ediləcək hər bir dəyişikliyin mətni və onun əsaslandırılmış qısa izahının göstərilməsi

nəzərdə tutulmuşdur. Konsepsiya sənədi hissə-hissə tərtib olunur və hər belə hissə, bir qayda olaraq, Mülki Məcəllənin bir fəslini əhatə edir.

İşçi qrup və tərtibat komandası konsepsiya sənədinin hər bir hissəsi üzərində işə başlamazdan əvvəl, ilk növbədə həmin hissənin əhatə etdiyi normaları tətbiq edən və (və ya) belə tətbiqə məruz qalan subyektlərin (maraqlı tərəflərin) siyahısı müəyyən edilir. **Maraqlı tərəflərlə görüş** keçirilərək müvafiq normaların təkmilləşdirilməsi ilə bağlı onların təklifləri, habelə təcrübədə qarşılaşdıqları problemlər barədə zəruri məlumatlar əldə edilir. Bundan sonra, maraqlı tərəflərdən əldə olunmuş məlumatlar nəzərə alınmaqla işçi qrupun üzvləri tərəfindən özlərinin əsaslandırılmış təklifləri formalaşdırılır və tərtibat komandasına konsepsiya sənədinin müvafiq hissəsinin ilkin layihəsinin hazırlanması tapşırılır. **İlkin layihə** hazır olduqdan sonra işçi qrupun iclasında müzakirə edilir. Həmin iclasda maraqlı tərəflərin iştirakı da təmin edilir. İclasda irəli sürülmüş rəy və təkliflər nəzərə alınmaqla tərtibat komandası tərəfindən konsepsiya sənədinin təkmilləşdirilməsi həyata keçirilir. **Təkmilləşdirilmiş layihə** üzərində işlər yekunlaşdıqdan sonra işçi qrupun üzvləri, tərtibat komandası və maraqlı tərəflər arasında daha bir görüş keçirilməklə həmin layihə müzakirə edilir. Müzakirənin nəticələri nəzərə alınmaqla tərtibat komandası tərəfindən **yekun layihə** hazırlanır və məlumat üçün işçi qrupun üzvlərinə göndərilir. Eyni zamanda, həmin layihənin HEQT Mərkəzinin rəsmi veb-saytında (https://heqt.gov.az/az/pages/view/mulki-mecellenin-kensepsiyas%C4%B1) da yerləşdirilməsi təmin edilir.